# Aqrar sektorun inkişafı və əlavə dəyər məsələsi

Aqrar sektorun inkişafı ölkəmiz üçün strateji əhəmiyyətə malikdir. Çünki aqrar sektor qida təhlükəsizliyimizin qarantı olmaqla yanaşı, əhalimizin məşğulluğunda mühüm rol oynayır. Azərbaycanın ənənəvi kənd təsərrüfatı sahələrini pambıqçılıq, üzümçülük, tütünçülük, baramaçılıq və çayçılıq təşkil etmişdir. Hələ ulu öndər Heydər Əliyev SSRİ dönəmində Azərbaycanda rəhbər olduğu vaxt bu sahələrdə məhsul yığımı çox yüksək göstəricilərlə ifadə olunurdu. Ulu öndərin Azərbaycana rəhbərliyi dönəmində həmin sahələrə yüksək diqqət göstərməsinin səbəbi həmin məhsulların respublikamıza külli miqdarda əlavə dəyər gətirə bilməsi idi.

Bu yazıda ölkəmizə aqrar sektorun əlavə dəyər gətirə biləcək başqa sahələri— soya paxlası, günəbaxan tumu, qarğıdalı və buğda yetişdirilməsi barədə fikirlərimi qeyd etmək istəyirəm.

Ölkəmiz müstəqillik əldə etdikdən sonra soyanı ilk dəfə Şəkidə 2005-ci ildə Hollandiya vətəndaşı Roni de Vris becərmişdi. O, bir hektardan təxminən 30 sentnerə yaxın məhsul ala bilmişdi. Həmin məhsulu emal edərək quşçuluq şirkətlərinə satmışdı. Bundan sonra bir sıra kənd təsərrüfatı mütəxəssislərimiz soya yetişdirilməsi barədə düşünməyə başladılar.

2013-cü ildə "Qarabağ Taxıl" MMC ilk dəfə Beyləqanda 10 hektarda soya yetişdirdi. Nəhayət, cari ildə soya yetişdirilməsini iri əkinçilik şəklində davam etdirdi. 1650 hektar ərazidə yetişdirdikləri soyanın məhsuldarlığı 30-40 sentner arasında proqnozlaşdırılır.

Soyanın aqrar iqtisadiyyatımızda rolu çox böyükdür. Quşçuluğun və maldarlığın qüvvəli yem təminatında soya cecəsinə olan tələbat 250 min ton dəyərləndirilir.

Ölkəmizin soya ilə təminatını mərhələli şəkildə həyata keçirə bilməyimiz üçün uyğun iqlim şərtlərinə malik 80-90 min hektar torpağı mərhələli şəkildə əkin dövriyyəsinə verməyimiz lazımdır.

Soya paxlasının yetişdirilməsi ölkəmizə əlavə dəyərlə yanaşı, bizdə ənənəsi olmayan yeni dərin emal sənayesi gətirəcəkdir. Soyanın dərin emalı sayəsində ondan yağ, cecə, soya südü, soya əti və başqa yan məhsullar alınmaqdadır. Dünya təcrübəsində soyadan 350-dək məhsulun istehsalında istifadə olunur.

Soya paxlasının Azərbaycanda yetişdirilməsi ölkəmizin tədiyyə balansına müsbət təsir etməklə yanaşı, soyadan istehsal olunan malların ölkə daxilində qiymətlərin nisbətən aşağı enməsinə səbəb olacaqdır.

Yerli soyanın ticarət dövriyyəsinə daxil olması aqrar sektorun bir çox sahələrinin inkişafina ciddi təkan verəcəkdir. Belə ki, toyuq əti və yumurta, inək və keçi südü istehsalını, o cümlədən, mal əti istehsalını şübhəsiz artıracaqdır.

Soya paxlası haqqında söylədiyimiz fikirlər olduğu kimi günəbaxan tumu yetişdirilməsinə də aiddir. Həm də günəbaxan ölkəmizdə soyadan daha çox tanınan, bəlkə də daha çox sevilən məhsul növüdür.

Soya paxlasından sonra günəbaxan tumu protein qaynağı kimi 2-ci yerdədir. Ölkəmizin günəşli olmasını nəzərə alsaq, günəbaxan yetişdirilməsi üçün münbit şəraitin olduğu göz qabağındadır. 2012-2013-cü illərdə Qəbələ rayonunda "Gilan Agroservis" 100 hektar ərazidə dəmyə şəraitində günəbaxan yetişdirmişdir. Məhsuldarlıq 1 hektarda 40 sentner təşkil etmişdir. Bu fakt onu deməyə əsas verir ki, ölkəmizdə günəbaxan yetişdirilməsinin böyük perspektivləri var. Təkcə qüvvəli yem istehsalında günəbaxan tumu cecəsinə olan tələbat ildə 150 min tondan çoxdur. Qüvvəli yem istehsalını günəbaxan cecəsi olmadan təsəvvür etmək mümkün deyildir.

Günəbaxan tumunun insan qidasında rolu əvəzsizdir. İnsan qidasında istifadə olunan bitki yağının əsas hissəsini günəbaxan yağı təşkil edir. Heç şübhəsiz, günəbaxan yağını təməl qida maddəsi saymaq olar.

Günəbaxan yetişdiriciliyi həm də arıçılığın inkişafina təkan verəcəkdir. Bir hektar günəbaxan sahəsində çarpaz tozlanmanı həyata keçirmək üçün 1,5-2 arı ailəsi işləyəcək, həm də bal toplayacaqdır.

Dənli bitkilərdən insan üçün ən əhəmiyyətlisi buğda və qarğıdalıdır. Buğdanın birinci yerdə yazılmasının səbəbi insanın təməl qida maddəsi olan çörəyin buğda unundan bişirilməsidir. Eyni zamanda buğda qüvvəli yem istehsalında soya cecəsi, günəbaxan cecəsi və qarğıdalı ilə yanaşı, ən mühüm 4 komponentdən biridir.

Süni suvarma şəraitində fermer təsərrüfatlarımız bir hektardan 55-60 sentnerə yaxın buğda əldə edə bilirlər.

Buğdadan çörək istehsalı üçün buğda unu, qlütein, nişasta və kəpək kimi mühüm məhsullar alınır. Adı çəkilən yarımfabrikat məhsullar başqa məhsulların istehsalında əsas komponent kimi istifadə olunurlar. Buğdadan qlütein və kəpəyi ayırmaq şərtilə etil spirti hazırlanır. Etil spirtinin alkoqol sənayesi ilə yanaşı, qida sənayesində və tibbdə rolu əvəzsizdir.

İndi isə qarğıdalı yetişdirilməsi haqqında danışmaq istəyirəm. Ölkəmizdə pivot qurğusu ilə suvarma şəraitində qarğıdalının məhsuldarlığı hektarda 120-150 sentner təşkil edir. Qarğıdalının dərin emalı nəticəsində yağ, nişasta, qlükoza, fruktoza, qarğıdalı özəyi, qarğıdalı kəpəyi kimi çox lazımlı məhsullar alınır.

Yuxarıda adı çəkilən məhsullar sonrakı istehsalda əsas və köməkçi xammal kimi istifadə olunur. Qarğıdalının qüvvəli yem sənayesində aparıcı rolu soya cecəsinə bərabərdir. Fiziki kütlə olaraq yem istehsalında soyadan çox istifadə olunur.

İndi isə qarğıdalının silaj (köhnə təbirlə silos) ola bilməsi xüsusiyyətini qeyd etmək istəyirəm.

Dənli bitkilərimizdən ən erkən biçiləni arpadır. Yalama Agroparkın əkin sahələrində arpa biçinindən sonra silaj məqsədi ilə əkilmiş qarğıdalı sahələrini bu ilin sentyabr ayının əvvəllərində məmnuniyyətlə seyr etdim.

Arpanın erkən biçini və ondan sonra həmin ərazidə şirəli yem və yaşıl kütlə kimi qarğıdalı yetişdirilməsi arpanın da qüvvəli yemin əsas komponentlərindən biri kimi cazibəsini artırır.

Satışı ƏDV-li həyata keçirilən qüvvəli yem toyuq əti və yumurta istehsalının, süd və mal əti istehsalının (iri baş heyvandarlıqda qaba və şirəli yem də əvəzsiz rol oynayır) lokomotividir.

Öz növbəsində adı çəkilən məhsullar birbaşa insan tərəfindən istehlak olmaqla yanaşı, yarımfabrikat və son məhsul istehsalının əsas xam maddəsidir.

Süddən xama, kəsmik, şor, kərə yağı, pendir, dovğa, ayran və s. istehsal olunur. Ətdən müxtəlif konservlər, sosis, kolbasa və s. istehsal olunur.

Xam maddə hər mərhələdə emaldan sonra hazır məhsula çevrilə bilməklə başqa istehsal üçün xam maddə ola bilmək özəlliyini saxlaya bilməsi, istehsalın davamlı şaxələnməsini və iş yerlərinin sayının artmasını, əlavə dəyər gətirmə silsiləsinin uzanmasını təmin edir.

Bu özəlliklərə malik olan istenilən məhsul aqrar sektorun strateji sahəsi sayılır.

Əlavə dəyər gətirən və gətirməyən məhsulun özəlliklərini qarpızla qarğıdalının müqayisəsində açıq-aşkar görmək mümkündür. Məsələn, dövlət qarpızın da, qarğıdalının da əkinini subsidiyalaşdırır. Lakin qarpız bu günə qədər emal sənayesində heç bir istehsal üçün xam maddə rolunu oynamır, əlavə dəyər gətirmə və iş yeri yaratma özəlliyi yoxdur.

Subsidiyalaşdırma ilə yanaşı, dövlət kənd təsərrüfatının bütün sahələrini torpaq vergisindən başqa bütün vergilərdən azad etmişdir. Bu vergi güzəşti 17 ilə yaxındır ki, davam edir.

Ölkəmizdə sənaye üsulu ilə yetişdirilən toyuqçuluq və maldarlığın tullantısı (quş və heyvan peyini nəzərdə tutulur) ildə təxminən 500 min ton həcmindədir. Kənd Təsərrüfatı Nazirliyi bu tullantıdan üzvi gübrə və ya kompleks üzvi-mineral gübrə istehsal olunmasını təşviq və təşkil edərsə, biz bu üsulla dövriyyədə olan torpaqlarımızın məhsuldarlığını artırmaqla yanaşı, bir sıra az məhsuldar torpaqların tezliklə əkin dövriyyəsinə qaytanlmasını təmin edə bilərik. Ekoloji məhsulların istehsalı həm də insanların sağlamlığının rəhnidir.

Əgər orqanik gübrənin subsidiyalaşdırılmasına nail ola bilsək, əminəm ki, vergi güzəştindən çox aqrar sektorun inkişafına subsidiya yolu ilə fermerlərə veriləcək 500 min ton orqanik gübrə daha çox kömək edəcəkdir. Orqanik gübrənin istehsalında alimlərimizin və mütəxəssislərimizin ciddi nailiyyətləri olmaqla yanaşı, istehsalı təmin etmək üçün ölkəmizdə kifayət qədər avadanlıq istehsalı da vardır. Orqanik gübrənin istehsalı və tətbiqi həm də minlərlə daimi iş yerlərinin yaranmasına gətirib çıxaracaqdır.

Kənd təsərrüfatının inkişafının təşviqinin davamlı olmasının tərəfdarıyam. Amma kənd təsərrüfatına ƏDV (məsələn, 3 faiz) tətbiq olunmalıdır. ƏDV-nin tətbiq olunması, fikrimizcə, aşağıdakı nəticələrə gətirib çıxardacaqdır:

-kənd təsərrüfatında statistikanın dəqiqləşməsini təmin edəcək;

-tətbiq olunan subsidiyaların effektivliyini artıracaq;

-fermerlərə vergi ödəyə-ödəyə



qazana bilmək vərdişlərini gətirəcək;

-emal sənayesində mal dövriyyəsinin şəffaflığını artıracaq;

-idxal olunan kənd təsərrüfatı məhsullarının kvotasını düzgün müəyyənləşdirməyə kömək edəcək;

-idxal olunan kənd təsərrüfatı məhsullarının kvotasının düzgün müəyyənləşdirilməsi həm kənd təsərrüfatı məhsulları istehsalçılarınının, həm də istehlakçılarının maraqlarının müdafiə olunmasına, qida bazarında təklif ilə tələbin tənzimlənməsinə imkan yaradacaq.

Ölkəmizin sürətlə inkişaf edən iqtisadiyyata malik olması onun çevik vergi siyasəti yürütməsini zəruri edir.

Nazirlər Kabinetinin 2016-cı ilin 9 ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında dövlət başçısı cənab İlham Əliyev yekun nitqində qeyd etdi ki, "Nəinki bu sahədə, biz bütün sahələrdə çevik siyasət aparmalıyıq".

Lider dövlətlər çevik vergi siyasətinə böyük önəm verirlər.

Çin Xalq Respublikası 2016-cı ilin may ayından gəlir vergisini tamamilə ləğv etmişdir. Dünya iqtisadiyyatının strateji oyunçusunun qərarı çoxlarını heyrətləndirdi.

Ekspertlərin fikrincə, Çin bu yolla özünün əvvəlki investisiya cazibəsini bərpa etməyə çalışmaqla yanaşı, onun üçün çox aktual olan ölkədən davamlı kapital axınının qarşısını almaq istəyir.

**Vahid HÜMMƏTOV,**
**Aqrar sənaye və emal sənayesi üzrə maşınqayırma mühəndisi.**